ÇALIŞ ÖZ XALQININ İŞİNƏ YARA

MÜBARİZ

GORANBOY RAYON İCRA HAKİMİYYƏTİNİN ORQANI

• № 4 (4912) • 24 APREL 2020-ci il • Qəzet 1932-ci ildən çıxır

"Həssas təbəqənin qorunması - hesab edirəm ki, indiki şəraitdə ən vacib məsələdir. Biz onlara sahib çıxmalıyıq, onlara dəstək verməliyik, onlara kömək göstərməliyik".

İlham ƏLİYEV.

Prezident İlham Əliyev Koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Sərəncam imzalayıb

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə qərara alıram:

Hər birində 200 çarpayı olan modul tipli 6 (altı) xəstəxananın quraşdırılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.66-cı bəndində göstərilmiş məbləğin 14,8 milyon (on dörd milyon səkkiz yüz min) manatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə ayrılsın.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 7 aprel 2020-ci il.

Goranboy Rayon İcra Hakimiyyəti başçısı yanında operativ qərargahın MƏLUMATI

Operativ Qərargah rayon sakinlərinin nəzərinə çatdırır ki, rayon ərazisində 23 aprel 2020-ci il tarixədək 657 nəfər koronavirus tibbi testindən keçmiş və bir nəfərdə virus aşkar edilmişdir. Həmin şəxs rayon Mərkəzi Xəstəxanasında xüsusi karantin rejimində müalicə edilir. Hazırda Goranboy RMX-a yerləşdirilmiş 96 nəfərdən 2-si vəfat edib, 19 nəfəri sağalma ilə çıxıb, 4-ü Bakı şəhərinə aparılmış, 71 nəfərin hazırda müalicəsi davam etdirilir.

Xüsusi karantini rejiminin tələb və qaydalarını pozduğuna görə, ümumilikdə 251 nəfər aidiyyəti üzrə rayon Polis Şöbəsi tərəfindən inzibati qaydada cərimələnmişdir.

Əziz goranboylular:

Operativ Qərargah sizləri bir daha, xüsusi karantini rejiminin tələb və qaydalarına ciddi əməl etməyə çağırır: "Evdə qal, sağlam ol"

VİDEO MÜŞAVİRƏ

İcra başçısı Məhərrəm Quliyevin sədrliyi və Qərargah üzvlərinin iştirakı ilə keçirilən online-video müşavirəyə inzibati ərazi dairəsi üzrə nümayəndəliklər də qoşuldu. İcra başçısı Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə rayonda xüsusi karantin rejiminin tələblərinə əməl edilməsi, sosial dəstəyə ehtiyacı olanlar və kənd təsərrüfatı işlərinin gedişi barədə məlumatları dinlədi, bu sahədə həlli vacib məsələlərin icrası ilə bağlı, ərazi dairəsi üzrə nümayəndəliklərə və digər aidiyyəti məsul şəxslərə tapşırıqlarını verdi.

Pandemiyaya qarşı ən yaxşı mübarizə Azərbaycanda aparılır - DEPUTAT AĞALAR VƏLİYEV

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda koronavirus pandemiyasının yayılmasının qarşısının alınması, bu qorxunc xəstəliyin fəsadlarının aradan qaldırılması, xalqımızın sağlamlığının mühafizə olunması və əhalimizin sosial müdafiəsinin gücləndirilməsi istiqamətlərində dövlətimiz tərəfindən bütün zəruri tədbirlər görülür. Bütün cəmiyyətimizin bu tədbirlərə dəstək verməsi xalqımızın həmrəyliyinin və öz dövlətinə inamının ifadəsidir.

Cənab prezidentin tapşırığı ilə həyata keçirilən bu tədbirlər dünya ölkələri üçün də nümunədir. Məhz, cənab İlham Əliyevin qərarı ilə koronavirus pandemiyasına qarşı önləyici tədbirlərin daha tez həyata keçirilməsi bu virusun ölkəmizdə geniş yayılmasının qarşını aldı.

Diqqət edirsinizsə, istər virusa yoluxma, istər ölüm sayı ətrafdakı ölkələrlə müqayisədə Azərbaycanda çox aşağıdır. Bunun səbəbi odur ki, Azərbaycan Prezidenti daha çevik qərarlar verərək, önləyici tədbirləri reallaşdıraraq, buna nail olub. "Yeni klinika"nın, onun ardınca tibbi maska istehsal edən müəssisənin istifadəyə verilməsi də bu siyasətin nə qədər düşünülmüş və genişmiqyaslı olduğunu göstərir. Hər bir vətəndaş dövlətin diqqətindədir. Bunu Prezidentimiz də hər çıxışında xüsusi vurğulayır. Hər birimiz də gündəlik həyatda bunun şahidi oluruq.

Cənab prezidentin tapşırığı ilə sosial vəziyyəti ağır olan vətəndaşlara yardım edilməsi, eləcə də karantindən zərərçəkən sahibkarlara dəstək verilməsi təqdir olunmalıdır. Bütün bu addımlarla dövlət xalqın yanında olduğunu sübut elədi. Verilən qərarlar onu göstərir ki, heç kim dövlətin qayğı siyasətindən kənarda qalmayacaq. Artıq on minlərlə işsiz insana yardım edilib. Onlar müvafiq formada 190 manatlıq kompensasiyanı almağa başlayıblar. Cənab prezident nazirlərlə videobağlantıda qeyd etdi ki, ümumi vəziyyəti nəzərə alaraq və 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir.

Bundan əlavə, yüz minlərlə insana yardımlar edilir. Bütün bunlar Azərbaycan dövlətinin vətəndaşının yanında olduğunu və ona lazım olan dəstəyi verdiyini göstərir. Bu gün bizim hər birimizdən yüksək vətəndaşlıq məsuliyyəti, birlik və həmrəylik nümayiş etdirməklə xüsusi karantin rejiminə və özünütəcrid qaydalarına ciddi şəkildə əməl etmək tələb olunur. İnanıram ki, bu sınaqdan dövlət və xalq olaraq, daha az itkilərlə çıxacağıq, çünki cənab Prezidentin təbirincə desək, biz birlikdə güclüyük.

Həyata keçirilən sosial islahatlar xalqın maraqlarına xidmət edir

"Dünyanı lərzəyə salan koronavirus pandemiyası ilə mübarizədə cənab Prezident İlham Əliyevin atdığı mükəmməl addımlar, müəyyən etdiyi məqsədyönlü qabaqlayıcı tədbirlərin nəticəsidir ki, hazırda ölkəmiz pandemiyanın geniş yayılmasının qarşısının alınması və insan itkilərinin az olması baxımından dünyanın ən inkişaf etmiş dövlətlərinə bir nümunədir. Belə bir həssas məqamda dövlət başçısının sosial sahədə imzaladığı fərmanlar əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımdır və irəli sürülmüş sosial paketlər əhalinin bütün təbəqələrini əhatə edir." Bu fikirləri "İki sahil" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Anar Məmmədov deyib.

A.Məmmədov bildirib ki, dövlət başçısının 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 10 tədbir öz əksini tapmışdı: "Bu gün o tədbirlər həm əhalinin sağlamlığına, iş yerlərinin saxlanmasına, həm də sosial təminatının qorunmasına xidmət edir. Eyni zamanda, bu tədbirlər planı Prezidentin ölkədə əhalini narahat edən bütün sosial-iqtisadi məsələlərdən hərtərəfli xəbərdar olduğunu və onları daim diqqət mərkəzində saxladığını, həmçinin qarşılaşılan problemlərin həlli istiqamətində ciddi tapşırıqlar verdiyini, nəticəsi ilə şəxsən maraqlandığını göstərir. Belə çətin günlərdə insanların sosial müdafiəsinin gücləndirilməsi üçün pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən vətəndaşların əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır və bu kateqoriyaya aid olan insanların sayı 300 mindən çoxdur. Eyni zamanda, 300 minə yaxın mikrosahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün də dövlət böyük maliyyə vəsaiti ayırıb. Ümumilikdə isə 1 milyon 629 min işçinin, o cümlədən dövlət sektoru üzrə 910 min, özəl sektor üzrə 719 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edilib."

Milli Məclisin deputatı qeyd edib ki, 17 aprel 2020-ci il tarixində Prezident İlham Əliyev tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətində 600 milyon manat vəsait ayrılıb: "Bununla yanaşı ölkə başçısı tərəfindən vətəndaşların sosial rifahına təsir edən digər bir neçə məqamı da yada sala bilərik. 2020-ci il martın 1-dən etibarən əlillik müddəti başa çatan əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların əlillik müddəti xüsusi karantin rejiminin bitdiyi tarixdən sonrakı ayın 1-dək uzadılıb və bu tədbir 14 min nəfəri əhatə edir, bunun üçün isə 2.6 milyon manat ayrılıb. Eləcə də, kommunal xidmətlərdən istifadəyə görə güzəştli elektrik enerjisi limiti aprel-may aylarında 100 kvts. həcmində artırılıb və 10 milyon manat ayrılıb. Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi nəzərdə tutulub ki, buna da 40 milyon manat ayrılıb."

KORONAVİRUS: QABAQLAYICI TƏDBİRLƏR

Hazırda dünya koronavirus pandemiyasının yaratdığı böyük çətinliklərlə qarşı qarşıyadır. Hətta ən çox inkişaf etmiş ölkələr belə bu çətinliklər qarşısında aciz qalıblar. Belə bir vaxtda Azərbaycan xalqının sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər, xüsusilə də genişmiqyaslı sosial dəstək tədbirləri bir çox ölkələr üçün nümunə ola bilər. Ölkəmizdə, ilk növbədə, yaranmış vəziyyətdən əziyyət çəkən vətəndaşların problemləri həll edilir. Bu məqsədlə böyük məbləğdə vəsait ayrılıb, pandemiyaya görə öz işini müvəqqəti olaraq itirən 600 mindən çox insan dövlət tərəfindən dəstəklə təmin edilir. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapır, əhalinin sosial rifahını qorumaq üçün digər mühüm addımlar atılır. Bu, bir tərəfdən liderin siyasi iradəsi, digər tərəfdən dövlətin iqtisadi gücü sayəsində mümkün olur. Mövcud reallıq Azərbaycan dövlətinin neqativ tendensiyaları layiqli qarşılamaq, zamanın istənilən çağırışına cavab vermək iqtidarında və əzmində olduğunu nümayiş etdirir. Dövlətimiz məhz zəruri iqtisadi və maliyyə imkanlarına arxalanaraq daim ən çətin vaxtlarda xalqın rifahının qorunmasına və özəl sektorun inkişafına öz dəstəyini göstərib və göstərməkdədir.

Azərbaycan Prezidentinin əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi istiqa- mətində verdiyi hər bir qərar, atdığı hər bir addım cəmiyyətdə razılıqla qarşılanır, böyük rəğbət doğurur. Dövlətimizin başçısına ünvanlanan minlərlə məktubda sadə vətəndaşların onlara göstərilən diqqət və qayğıya görə sonsuz minnətdarlıq hissələri ifadə olunur.

Goranboyun şəhid Milli Qəhrəmanı Niyazi Aslanovun xanimi Rübabə İsmayılovanin Mehriban xanım Əliyevaya
T Ə Ş Ə K K Ü R M Ə K T U B U

Hörmətli Mehriban xanım.

Sizin və hörmətli prezidentimizin bu ağır günlərdə Azərbaycan xalqı üçün göstərdiyiniz fədakarlıqlara, diqqətə,qayğıya görə bir şəhid ailəsi kimi,bir Milli Qəhrəmanın həyat yoldaşı kimi sizə öz dərin minnətdarlığımı bildirirəm.

Mən Ulu Önderlə görüşüm zamanı həmişə qeyd etmişdim ki,biz heç bir çətinlikdən qorxmuruq. Çünki, bizim qüdrətli dövlətimiz var və uzaqgörən prezidentimiz var. Bu sözləri bu gün də mən fəxrlə deyə bilərəm.

Hörmətli Mehriban xanım,sizə uzun ömür can sağligi, bu çətin günlərdə işlərinizdə uğurlar arzulayıram.

Allah üstünüzdə yar olsun.

Hörmətlə Azərbaycanın Milli Qəhrəmanı Niyazi Aslanovun həyat yoldaşı İsmayılova Rübabə.

Şəhid, Milli Qəhrəman anası Gülzar Ocaqverdiyavanın Azərbaycan Respublikasının Birinci vitse prezidenti Mehriban xanım Əliyevaya
T Ə Ş Ə K K Ü R M Ə K T U B U

Hörmətli Mehriban xanım.

Hazırda dünyanı cənginə alan pandemiya dövründə ölkəmizdə cənab Prezidentimizin və Sizin rəhbərliyiniz, diqqət və qayğınız sayəsində əhalinin sağlamlığının qorunması üçün ciddi addımlar atılır. Ölkəmizdə aztəminatlı və imtiyazlı ailələrə böyük dövlət dəstəyi göstərilir.

Hörmətli Mehriban xanım, buna görə mən Sizə təkcə Milli Qəhrəman anası kimi deyil, polis, həkim, müəllim anası kimi minnətdarlığımı bildirirəm. Sizinlə qürur duyuruq. Allah Sizi qorusun.

Hörmətlə, Ocaqverdiyeva Gülzar Kərim qızı.
Azərbaycan Respublikası, Goranboy rayonu, Tatarlı kəndi.

Goranboy rayon Milli Qəhrəmanlar Prezidentimizə minnətdarıq məktubu ünvanlayıb

Möhtərəm Prezident.

Cənab Ali Baş Komandan.

Dünyanı bürüyən koronavirus pandemiyası bəşəriyyəti ölüm təhlükəsi ilə üz-üzə qoymuşdur. Avropanın ən böyük dövlətləri bu virusla mübarizədə aciz durumdadır.

Ancaq, Sizin uzaqgörən və düşünülmüş məqsədyönlü qərarlarınız və həyata keçirdiyiniz işlər sayəsində Azərbaycan bu virusa qarşı effektli mübarizə aparan ən qabaqcıl ölkələr sırasındadır. Məhz Sizin xüsusi tapşırığınızla Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması və ölkə ərazisində xüsusi karantin rejiminin elan edilməsi bu virusun yayılma təhlükəsinin və baş verə biləcək ağır fəsadların əvvəlcədən qarşısının alınması baxımından zəruri addım idi.

Xüsusi təyinatlı xəstəxanaların tikilməsi, həmçinin bu yaxınlarda Sizin iştirakınızla istifadəyə verilmiş Goranboy Mərkəzi Xəstəxanasının da bu təyinatla fəaliyyət göstərməsi, əlavə tibbi ləvazimatların alınması və əhali üçün Sosial Paketin hazırlanması ilə bağlı Sərəncamlarınız Sizin vətəndaşlarımıza verdiyiniz dəyərin, göstərdiyiniz qayğının təzahürüdür.

Sizin və Mehriban xanımin xalqımıza müraciətləriniz də bunu bir daha sübut edir.

Biz yaxşı bilirik ki, ölkəmizdə hər bir şey dövlətimizin, Sizlərin nəzarətindədir. Səhiyyə işçilərimiz və digər bütün dövlət orqanları birgə fəaliyyət göstərərək bu ümumbəşəri bəlaya qarşı əzmlə mübarizə aparır.

Goranboy rayonunda da bununla bağlı ciddi əməli tədbirlər; dezinfeksiya və maarifləndirmə işləri lazımi səviyyədə həyata keçirilir.

Cənab Prezident.

Biz, bütün qəhrəman goranboylular adından Sizə və Mehriban xanıma, xalqımızın sağlamlığı üçün göstərdiyiniz bu diqqətə görə minnətdarlığımızı bildiririk.

Uca Allahın köməyi ilə xalqımız bu bəladan sağ-salamat qurtulacaq və bir Ali Baş Komandan kimi, Sizin rəhbərliyinizlə biz Milli Qəhrəmanlar və bütün Qəhrəman goranboylular birlikdə, tezliklə Qarabağımızı erməni işğalçılarından - murdar erməni virusundan azad edəcəyik.

Böyük Allah xalqımızı, dövlətimizi qorusun.

Goranboy rayon İcra Hakimiyyətinin başçısı cəbhə bölgəsində yerləşən Tap Qaraqoyunlu kəndində oldu

İcra Başçısı Məhərrəm Quliyev cəbhə bölgəsində yerləşən Tap Qaraqoyunlu kəndində aparılan yol çəkilişi işləri və kəndin suvarma suyu ilə təminatı vəziyyəti ilə yerində tanış oldu, yolun kənd qəbirstanlığınadək davam etdirilməsi üçün aidiyyəti məsul şəxslərə tapşırıqlarını verdi. İcra Başçısı Şəhidin həyat yoldaşı Şəfiqə Məmmədovanın evində olaraq onunla görüşdü və yaşayış şəraiti ilə tanış oldu.

Çiyid səpini davam edir

Goranboy rayonunda cari mövsümdə 2200 hektar pambıq əkini nəzərdə tutulmuş, hazırda 631 hektarda çiyid səpini aparılmışdır. Səpin işləri davam etdirilir. Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev aparılan səpin işləri ilə yerində tanış olmuşdur.

Dəliməmmədli şəhərində

Goranboy rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev Dəliməmmədli şəhərində ilk olaraq qəzalı vəziyyətdə olan binada vəziyyətlə tanış oldu, sonra həmin binanın sakinlərinin mənzil şəraitinin yaxşılaşdırılması məqsədi ilə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə yeni inşa edilmiş 8 mənzilli binaya baxış keçirdi.

Binada tikinti işləri tam başa çatdırılmışdır. İcra başçısı binanın elektrik, təbii qaz, su və rabitə xətləri ilə təhciz olunması məqsədi ilə lazımi işlərin aparılması ilə bağlı aidiyyəti məsul şəxslərə tapşırıqlarını verdi.

DAXİLİ İŞLƏR NAZİRLİYİ TÖVSİYƏ EDİR SAAT 21.00-dan SONRA EVİNİZİ TƏRK ETMƏYİN

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkədə tətbiq edilən xüsusi karantin rejiminə riayət olunmasının vəziyyətinin təhlili və aparılmış araşdırmalar göstərir ki, hərəkətinə xidməti vəsiqə, arayış, elektron qeydiyyat əsasında icazə verilən şəxslərin əksəriyyəti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 2 aprel tarixli 124 nömrəli Qərarında müəyyən olunmuş hüquqlardan sui-istifadə edərək iş vaxtı və icazə müddəti başa çatdıqdan sonra, eləcə də qeyri-iş günlərində müvafiq məhdudiyyətlərə əməl etmir, küçələrdə və avtomobil yollarında intensivliyi, eyni zamanda infeksiyanın yayılma riskini artırırlar.

Bununla əlaqədar bütün orqan, müəssisə və təşkilatların rəhbərlərindən tələb olunur ki, "icaze.e-gov.az" portalına yalnız əmək müqaviləsi və ya xidməti müqavilə əsasında çalışan şəxs haqqında məlumatları daxil etsinlər. Əməkdaşlarına işdən çıxdıqdan sonra məhz yaşadıqları ünvana qayıtmalarının vacibliyini, verilmiş icazələrdən sui-istifadə hallarına görə inzibati qanunvericiliyə uyğun məsuliyyət daşımalarını izah etsinlər.

Vətəndaşlara evdən yalnız tibbi zərurətlə əlaqədar, ərzaq və dərman almaq, bank və poçt xidmətindən istifadə etmək məqsədilə müəyyən edilmiş qaydada icazə aldıqdan sonra çıxmaq, bu zaman fərdi nəqliyyat vasitəsindən istifadə etməmək, saat 21.00-dan sonra isə yaşadığı ünvanı tərk etməmək tövsiyə olunur.

Özünüzün və ailənizin sağlamlığını qorumaq üçün bir daha məhdudiyyət tədbirlərinə riayət olunmasını xahiş edirik.

İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına dəstək olaraq ehtiyacı olan ailələrə ərzaq yardımları təqdim olunub

Koronavirus pandemiyası ilə mübarizə çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Biz birlikdə güclüyük" çağırışına, eləcə də Goranboy Rayon İcra Hakimiyyətinin təşəbbüsünə qoşulan Goranboylu iş adamları Mehman Məmmədov, Adil Quliyev, Vaqif Tanrıverdiyev, Gündüz Mürsəlov aztəminatlı ailələrə maddi yardım göndərmişdir.

Yeni Azərbaycan Partiyası rayon təşkilatı Gənclər Birliyinin fəalları və könüllülərinin yaxından köməkliyi ilə ayrı-ayrı ünvanlarda yaşayan aztəminatlı, tənha, yaşlı insanlara ərzaq bağlamaları paylanmışdır. Həmçinin onların koronavirusdan qorunması, sağlamlığının müdafiəsi məqsədilə maarifləndirici söhbətlər aparılmışdır.

Bu istiqamətdə işlər davam etdirilir.

Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə köməyə ehtiyacı olan insanlara, aztəminatlı ailələrə ərzaq məhsullarından ibarət sovqatların paylanılması davam edir

Goranboy rayon Dövlət Sosial Müdafiə Fondu və YAP rayon təşkilatının könüllüləri yaşı 65-dən yuxarı, tənha yaşayan şəxslərə, o cümlədən karantin rejimində sosial yardıma ehtiyacı olan aztəminatlı 70 tənha və ahıl ailələrə ərzaq məhsullarından ibarət sovqatlar paylayıb, onlara infeksiyadan qorunmaq üçün şəxsi gigiyena qaydaları və sosial təcridolmanın vacibliyi barədə məlumatlar verib.

Dövlətin pandemiya ilə mübarizədə həyata keçirilən tədbirlərdən razılıq ifadə edən vətəndaşlar göstərilən xüsusi diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Xatırladaq ki, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejimi dövründə 65 yaşdan yuxarı şəxslərin evdən çıxışı qadağan edilib, insanların yaxın təmaslarını azaltmaq üçün hərəkət məhdudiyyətləri müəyyən olunub.

Bir daha vətəndaşlarımızı bu həssas dövrdə evdə qalmağa, dövlətin müəyyən etdiyi karantin rejimi qaydalarına ciddi riayət etməyə çağırırıq.

GORANBOY RAYON POLİS BÖLMƏSİ ƏMƏKDAŞLARI İŞ BAŞINDA

Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilən xüsusi karantin rejim qaydalarının təmin olunması istiqamətində Goranboy Rayon Polis İdarəsinin və onun tabeli orqanlarının əməkdaşları tədbirləri davam etdirirlər.

Region Aqro" MMC (Goranboy Aqro) tərəfindən rayonda 300 aztəminatlı ailəyə ərzaq yardımı verildi

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Biz birlikdə güclüyük" çağırışına əsasən, "Region Aqro" MMC ölkəmizdə koronavirus (COVİD-19) pandemiyasının qarşısının alınması məqsədi ilə, hazırda davam edən xüsusi karantin rejimi ilə əlaqədar sosial dəstək tədbirlərinə qoşulmuşdur. Belə ki, Goranboy rayonu ərazisində xüsusi karantin rejiminin qayda və tələblərinə uyğun olaraq sosial izolyasiya şəraitində yaşayan aztəminatlı ailələrə baş çəkilmiş, onlara ərzaq məhsullarından ibarət yardımlar çatdırılmışdır.

Fəxralı və Qurbanzadə kəndlərində-59, Şadılıda-20, Xoyluda-21, Qaradağlıda-36, Dəlimənmədlidə-32, Alpoutda-21, Düzqışlaqda-22, Baxçakürddə - 20, Qazanbulaqda-31, Quşçularda-11 və Yəhərçi-Qazaxlarda- 27 olmaqla, ümumilikdə 300 aztəminatlı ailələrə ərzaq yardımı verilmişdir.

05 iyun 2018-ci il tarixdən fəaliyyətə başlayan və ölkənin ərzaq təminatında mühüm rol oynayan "Region Aqro" MMC Koronavirusla Mübarizəyə Dəstək Fonduna 100 (yüz) min manat məbləğində vəsait köçürməklə də öz sosial dəstəyini ifadə etmişdir.

Rayon Mərkəzi xəstəxanasında koronavirusla bağlı görülən tədbirlər

Bu ağır sınaq günlərində əsas güc, əziyyət tibb işçilərinin üzərinə düşür.

Azərbaycanda ümumilikdə 21 xəstəxana pandemiya ilə mübarizə üçün ayrılıb. Bu xəstəxanalardan 6-sı Bakıda 15-i isə rayonlarda yerləşir. Rayonlarda ayrılan 15 xəstəxanadan biri Goranboy rayonunda yerləşir.

Goranboy rayon Mərkəzi Xəstəxanası hazırda Regional Karantin Mərkəzi kimi fəaliyyət göstərir, koronovirusa yoluxan bölgə vətəndaşları burada müalicə olunur.

Goranboy rayon mərkəzi xəstəxanası yoluxucu xəstəliklər şöbəsinin müdiri Hicran Abdullayeva ilə sohbətimizdə bütün dünyanın bəlası olan koronavirus haqqında olacaq.

Hicran həkim deyir:

-- Rayonumuzda yeni istifadəyə verimiş müasir tipli xəstəxana hazırda Regional Karantin Mərkəzi kimi ölkəmizin 6 rayonuna xidmət göstərir. Bu rayonlarda koronavirusa yoluxan xəstələr bu tibb mərkəzində yerləşdiriliblər. Bu xəstələrin müalicəsi üçün həkim briqadaları gecə -gündüz çalışırlar.

Xəstəxanada həkimlərin qorunması və koronavirus xəstələrinin müalicəsi üçün bütün lazımi şərait yaradılıb. Rayonda koronavirusa yoluxan yalnız bir xəstəmiz var. Şöbəmizin həkimləri Təranə Abbasova, Olqa Sumkina kiçik tibb işçilərindən Nailə Məmmədova, Səmra Allahverdiyeva, İradə Həsənova, Lalə Mehdiyeva, Telli Hüseynova və başqaları bu çətin günlərdə öz doğmalarının, ailəsinin yanında deyil, xəstələrin yanındadırlar.

Mən bir həkim kimi təəssüflə bildirirəm ki XXI əsr bütün texnologiyaların inkişaf etdiyi bir dövrdə bütün bəşəriyyət bu virus əlində aciz qaldı. Pandemiya bütün dünya ölkələrini ağuşuna aldı, minlərlə insanın həyatına son qoydu və təəssüf ki hələ də son qoymağa davam edir.

Bunu deməyi özümə borc bilirəmki ən böyük və lider ölkələrlə müqayisədə bizim olkəmizdəki vəziyyət əslində çox yaxşıdır. Ölkə prezidenti İlham Əliyevin vaxtında, düşünülmüş, qabaqlayıcı tədbirləri belə deməyə əsas verir. Hazırda respublikamızda epidemioloji vəziyyət ciddi nəzarətdədir. Vətəndaşlarımızın vəzifəsi isə qoyulmuş qaydalara əməl etməkdir. Əgər qaydalara ciddi riayət olunsa ölkəmiz bu pandemiyadan az itki ilə qurtula bilər.

Vətəndaşlarımız bilməlidir bu xəstəlikdən qorunmağın sadə yolu adi gigiena qaydalarına əməl etməli, əlləri tez-tez yumalı,spirtləməli, maskalardan istifadə etməli, distansiyanı gözləməlidirlər. Xəstəliyin əsas əlamətləri uzun müddət davam edən yuksək hərarət, quru öskürək, tənəffüs çətinləşməsi, təngnəfəslik, halsızlıq və s.

Mən öz həmkarlarıma minnətdaram. Bu ağır günlərdə öz həyatlarını risk altında qoyaraq gecə-gündüz xəstələrin başlarının üstündədirlər, onların sağalması üçün əllərindən gələni əsirgəmirlər. Öz həkimlərimiz, eləcədə dünya həkimləriunin fədakarlığı qarşısında baş əyirəm. Allah sizi qorusun! Əziz soydaşlarım, qəhrəman goranboylularım sizə isə deyirəm "evdə qalin, sağlam olun"

HƏYATINI RİSK ALTINDA QOYAN HEKİMLƏRİMİZ ƏLLƏRİNİZ VAR OLSUN!

Hazırladı: Xuraman ABBASOVA.

DEZİNFEKSİYA APARILIR

Goranboy rayon icra hakimiyyətinin diqqət və nəzarəti altında davamlı olaraq rayonun küçə və meydanları, yaşayış binaları, inzibati binalar mütəmadi olaraq dezinfeksiya edilir.

Təhsil Nazirliyi "Virtual məktəb" layihəsini təqdim edir

Aprelin 2-dən Təhsil Nazirliyi tərəfindən "Virtual məktəb" layihəsinə start verildi.

Layihənin məqsədi Təhsil Nazirliyi tərəfindən yayımlanan teledərslərin interaktivliyini təmin etmək və ümumilikdə məsafədən tədris imkanlarını genişləndirməkdir.

"Virtual məktəb" layihəsi Təhsil Nazirliyi və "Microsoft" korporasiyası arasında əməkdaşlıq çərçivəsində həyata keçirilir. Hər bir şagird "Virtual məktəb" portalında qeydiyyatdan keçərək öz yaşına əsasən sinfə təyin olunacaq və müəllimlər tərəfindən həftəiçi teledərslərdə tədris olunmuş mövzulara uyğun hazırlanmış ev tapşırıqlarını yerinə yetirəcək. Portala hər həftə müxtəlif mövzu və fənlərə uyğun olaraq yeni tapşırıqlar əlavə olunacaq.

"Virtual məktəb" portalında müəllimlər tərəfindən onlayn dərslərin keçirilməsi üçün də imkan yaradılacaq. Eyni zamanda şagirdlər yoldaşları ilə görüntülü və səsli əlaqə yaratmaq üçün "Chat" funksiyasından istifadə edə biləcəklər.

Qeyd edək ki, "Virtual məktəb" portalının mobil tətbiqi də mövcuddur. Bunun üçün şagirdlər "AppStore" və "Google Play" marketlərindən "Microsoft Teams" adlı tətbiqi yükləyib istifadəçi adı və fərdi şifrələri ilə portalda qeydiyyatdan keçə biləcəklər.

Təhsil Nazirliyi bütün şagirdləri və onların valideynlərini aprelin 2-dən başlayaraq virtual.edu.az onlayn portalında qeydiyyatdan keçməyə dəvət edir. Qeydiyyatdan keçmək üçün şagird və valideynlər təlimatla tanış ola bilərlər .

Xatırladaq ki, Təhsil Nazirliyinin təşkilatçılığı ilə martın 11-dən "Mədəniyyət" və "ARB Günəş" kanallarında ölkənin ümumi təhsil müəssisələrinin şagirdləri üçün teledərslərin yayımına başlanılıb. Teledərslər bütün sinifləri və əksər fənləri əhatə etməklə həm Azərbaycan, həm də rus bölmələri üçün əvvəlcədən elan edilmiş cədvələ uyğun olaraq təqdim edilir.

Teledərslər həmçinin həftədə bir dəfə canlı yayımlanır ki, bu da fənn müəllimlərinin şagirdlərin bu və ya digər mövzular üzrə suallarını birbaşa olaraq çəkiliş studiyasından cavablandırmasına və zəruri olan əlavə izahatları verməsinə imkan yaradır. Teledərslərin bütün ölkə ərazisinə yayımlanan televiziya kanalları vasitəsilə nümayiş etdirilməsində əsas məqsəd tədrisdə yaranmış fasilə zamanı hər bir şagird üçün əlçatanlığı təmin etməkdir. Bununla yanaşı, şagirdlər teledərsləri və hər bir fənn üzrə əlavə video materialları Təhsil Nazirliyinin www.video.edu.az elektron portalında onlara uyğun olan vaxtda da izləmək imkanına malikdirlər.

AİLƏDƏN AİLƏYƏ

Dünyada tüğyan edən koronavirus pandemiyasına qarşı rayonumuzda da ciddi, qabaqlayıcı və insan sağlamlığına xidmət edən profilaktik tədbirlər həyata keçirilməkdədir. Bütün təşkilatlar, idarə və müəssisələr karantin rejiminin qaydalarına müvafiq olaraq bu mübarizədə əllərindən gələni etməyə çalışırlar.

Koronavirusla mübarizəyə öz töhfəsini verən təşkilatlardan biri də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rayonumuzda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzidir.

Mərkəzin əməkdaşları bugünədək "Ailədən ailəyə" aksiyası çərçivəsində rayonda yaşayan 26 aztəminatlı, o cümlədən 20 həssas təbəqədən olan ailəyə ərzaq yardımı etmiş. Həmçinin 90 nəfəri əhatə edən koronavirusla mübarizə qaydaları barədə məlumatlandırıcı söhbətlər aparmış, 70 nəfərə bu barədə vərəqələr paylamışlar. Və mütəmadi olaraq ailələrə zənglər edir, ailə üzvlərini bu qaydalar barədə məlumatlandırırlar.

Bugün, bütün dünyada olduğu kimi, ölkəmizdə yaşanan digər bir problem də tibbi maskaların çatışmamazlığıdır. Uşaq və Ailələrə Dəstək Mərkəzinin əməkdaşları bu işdə də fərqləndilər. Belə ki, gün ərzində 100-150 tibbi maska tikərək yenə də aztəminatlı və həssas təbəqədən olan ailələrə həmin maskaları evlərində təqdim edirlər.

Mərkəzin keçirdiyi bu kimi kampaniyalar davam etməkdədir. Və vətəndaşlarımızın bu kimi həmrəyliyi və yardımsevərliyi təqdirəlayiqdir.

Nuranə MİRZƏYEVA.

GÜNÜN REALLIĞI

Adamsız parklar, bomboş küçələr...





Bu gün dünyamız çox böyük bir imtahan qarşısındadır. Hardan qaynaqlandığı hələ bəlli olmayan, ilk dəfə Çində aşkarlanan və sürətlə yayılan, dünya tarixinin ən dəhşətli viruslarından biri olan koronavirus (COVİD-19) pandemiyası bütün bəşəriyyəti cənginə alıb. Olduqca sürətlə yayılan minlərlə insanı öldürən və hələ də öldürməkdə davam edən virus sərhəd tanımır. Ən güclü, ən böyük dövlətlər belə onun əlində aciz qalıblar.

Bu bəladan qorunmaq üçün dövlətlər sərhədləri bağlayır, insanlar ünsiyyətdən təcrid olunur. Doğmalarından ayrı düşür. Ancaq bəla səngimir daha çox can almağa çalışır.

Olkəmizdə bu iş çox yüksək səviyyədə təşkil olunub. Pandemiyanın ilk günlərindən qabaqlayıcı önləm alan Prezidentimizin vaxtında verdiyi fərman və sərəncamlar Azərbaycanda virusun yayılma tempini aşağı saldı. Odur ki bu gün virusa yoluxanların sayı sağalanların sayından cox aşağıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "biz birlikdə güclüyük" fikri və "evdə qal" şüarı goranboyluların həyat simvoluna çevrilib.Goranboyda karantin rejiminə ciddi əməl edilməsinin nəticəsidir ki bu gün rayonumuzda yalnız bir yoluxma halı var.

Bu gün adamsız, bomboş qalan küçələr, parklar sabahimizin sağlamlığına xidmət edir.

Gəlin hamılıqla qaydalara riayət edək ki respublikamız bu bəladan çox az itki ilə çıxa bilsin. Yenidən sizləri sağ sağlam parklarda, küçələrdə , digər istirahət mərkəzlərində görmək ümidi ilə .

Sizin "MÜBARİZ".

Evdə qal, təhsildən qalma!

Artıq bir aydan çoxdur evdəyik. Məktəblər bağlanıb. Dünyanı bürüyən Koronavirus təhlükəsi hər bir kəsi təşvişə salıb. Ölkəmizdə də karantin rejimi elan edilib. Ona görə heç birimiz evdən bayıra çıxmırıq. Atam deyir ki, biz də Prezidentimizin qoyduğu şərtlərə əməl etməliyik. Axı, Prezidentimiz bizi düşünür, bizim sağlamlığımız və təhlükəsizliyimiz üçün çalışır. Biz də qardaşlarımla atama qulaq asıb həyətə düşmürük, digər uşaqlarla təmasa girmirik.

Lakin buna baxmayaraq biz təhsilimizdən də geri qalmamalıyıq. Mən Goranboy şəhər 2 saylı tam orta məktəbin 5-ci sinfində oxuyuram. Karantin dövrü başlayan gündən bugünədək hər gün dərslərimi təkrarlayırdım, "Mədəniyyət" televiziya kanalından keçirilən tele dərsləri hər gün izləyirdim. Artıq bir neçə gündür ki, Təhsil Nazirliyinin yaratdığı virtual tədris sistemindən də yararlanıram. Həmçinin fənn müəllimlərimiz Nahidə Məmmədova, Leyla Həsənova internet üzərindən bizlərə onlayn dərslər keçir, ev tapşırıqları verirlər. Və hər birimiz böyük məsuliyyətlə ev tapşırıqlarımızı yerinə yetiririk.

İnanıram ki, Allahın köməkliyi ilə xalqımız və dünyamız tez günlərdə bu bəladan da qurtulacaq. Odur ki, uşaqlar, gəlin hamımız bir olaq və evdə qalaq. Ancaq evdə qalarkən təhsili də unutmayaq.

Bir sözlə, evdə qalaq, lakin təhsildən geri qalmayaq!

Rüfət ALLAHVERDİYEV,
Goranboy şəhər 2 saylı tam orta məktəbin 5a sinif şagirdi.

FHN-ın avtonəqliyyat vasitələri sahiblərinə MÜRACİƏTİ

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə 5 aprel 2020-ci il tarixindən ölkə ərazisində xüsusi karantin rejiminin tətbiqi və hərəkət məhdudiyyətinin müəyyən olunması avtomobillərdən istifadəni kəskin azaldıb və avtonəqliyyat vasitələri əsasən yaşayış binalarının həyətyanı sahələrində park edilib.

Həyatımızın ilk və kaş ki, sonuncu olacaq karantin rejimli dövrünü yaşayırıq. Bu rejim daha çox diqqət, hər kəsə qayğı ilə yanaşma, həmrəylik nümayiş etdirmək tələb edir!

Bir çox hallarda pərakəndə şəkildə, binaların girişlərində, avtomobil yollarının hərəkət hissəsində və ya yanğına qarşı su təchizatı sistemlərinin bilavasitə yaxınlığında park edilmiş avtomobillər fövqəladə hadisə zamanı xilasetmə, yanğınsöndürmə və digər iri qabaritli xüsusi təyinatlı avtomobillərin hərəkətinə maneə yaradır, habelə yanğınların söndürülməsi zamanı su hovuzları və hidrantlardan suyun götürülməsini çətinləşdirir, bəzi hallarda isə mümkünsüz edir. Son zamanlar ölkəmizdə baş verən yanğınların təhlili, həmçinin bir sıra xarici ölkələrdə müşahidə olunan yanğınlar məsələ ilə bağlı vaxtında zəruri tədbirlər görməyi tələb edir. Mövcud problem avtomobillərin saxlanılma yerlərində - həyətlərdə, səkilərdə, su hövzələrinin yaxınlığında, hətta onların üstündə və sair kimi yerlərdən uzun müddətli park yeri kimi istifadə halları ilə bəzi avtomobil sahiblərinə əhəmiyyətsiz görünən, harada yer tapıram, orada da saxlayıram, deyərək yolları bağlayan sakinlər özlərinin, ailə üzvlərinin, qonşularının xilası üçün gələn xilasedicilərə ciddi maneə yaradır, onlara müqəddəs, qəhrəmanlıq tələb edən, ən qısa zamanda həyata keçirməli olduqları vəzifələrini yerinə yetirməyə məhdudiyyətlər yaradır və sonradan bundan ciddi fayda verməyən peşmançılıq çəkirlər.

Qeyd olunanları nəzərə alaraq, baş verə biləcək yanğın və digər fövqəladə hadisələr zamanı xilasetmə və yanğınsöndürmə avtomobillərinin, digər iri qabaritli xüsusi təyinatlı texnikaların binaların həyətinə maneəsiz daxil olması, su hovuzları və hidrantlardan rahat istifadə imkanına malik olmaları, döyüş vəziyyətinə gətirilmə üçün tələb olunan normativlərə sığışa bilməsi üçün vətəndaşlardan avtomobillərini yalnız təyin olunmuş yerlərdə, bir-biri ilə ara məsafəsi saxlamaqla park etmələrinin vacibliyini bir daha xatırladırıq.

ALLAH RƏHMƏT ELƏSİN

Məşədiqaralar kənd mədəniyyət evinin direktoru Rəsmiyyə Paşayeva kollektivi adından Gəncə Regional Mədəniyyət idarəsi Goranboy rayon mədəniyyət mərkəzinin metodisti Kəmalə Axundovaya həyat yoldaşı

ŞAMİL MƏMMƏD oğlunun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səfikürd kənd mədəniyyət evinin direktoru Telli Behbudova kollektivi adından Gəncə Regional Mədəniyyət idarəsi Goranboy rayon mədəniyyət mərkəzinin metodisti Kəmalə Axundovaya həyat yoldaşı

ŞAMİL MƏMMƏD oğlunun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Mübariz" qəzeti redaksiyasının kollektivi Kəmalə Axundovaya ömür gün yoldaşı

ŞAMİL MƏMMƏD oğlunun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

REDAKTOR
Xuraman Vaqif qızı

Ünvanımız:2200 Goranboy şəhəri, İlham İsmayılov küçəsi, 31.
mubariz.goranboy@gmail.com
(022) 24-5-19-33
Mob: 051 443 23 60

Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 500

Təsisçilər Goranboy rayon İcra hakimiyyəti və redaksiyanın jurnalist kollektivi

"MÜBARİZ"
Sifariş 34
Qeydiyyat nömrəsi 490